**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№** 113 **"**16**"** May **2022-ci il**

**Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun yeni tərkibinin təsdiq edilməsi haqqında**

Rayon İcra Hakimiyyəti başçısının 14.12.2020-ci il tarixli 158 saylı Sərəncamı ilə təsdiq edilmiş Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun yeni tərkibinin təsdiq edilməsinə zərurət yaranmışdır.

Qeyd olunanları, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununa və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun yeni tərkibi aşağıdakı qaydada təsdiq edilsin:

**Monitorinq qrupunun sədri:**

| | |
|---|---|
| Sevinc Süleymanova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |

**Monitorinq qrupunun katibi:**

| | |
|---|---|
| Aynur Abbasova | Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi |

**Monitorinq qrupunun üzvləri:**

| | |
|---|---|
| Fuad Məmmədov | Binəqədi rayon prokuroru, ədliyyə müşaviri |
| Musa Musayev | Binəqədi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki |

| | |
|---|---|
| Məlahət İbrahimova | 11 saylı uşaq poliklinikasının baş həkimi |
| Tahirə Əsgərova | Binəqədi rayon Qeydiyyat şöbəsinin rəisi |
| Cahandar Axundov | AR ƏƏSMN tabeliyində Sosial Xidmətlər Agentliyinin 2 saylı filialının müdiri |
| Mailə İsmayılova | Bakı şəhəri 102 nömrəli tam orta məktəbin direktoru |
| Kəmalə Ağazadə | "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri |
| Mehriban Zeynalova | "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri |
| Ülviyyə Hümmətova | "Focus Group" Psixoloji Yardım şirkətinin təsisçisi |

**2.** Rayon İcra Hakimiyyəti başçısının 14.12.2020-ci il tarixli 158 saylı Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

**3.** Monitorinq qrupunun fəaliyyətinin koordinasiya edilməsinə nəzarətin həyata keçirilməsi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**4.** Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun tərkibində işçi qrup yaradılsın və həmin işçi qrupun üzvlərinin siyahısı təsdiq edilsin (əlavə olunur).

**5.** Sərəncamın surətinin monitorinq qrupunun üzvlərinə göndərilməsinin təmin edilməsi Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN